

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

31 avqust 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 33 (3647)

# "Böyük qayıdış" davam edir

## Prezident İlham Əliyev Laçın rayonunda görülən işlərlə tanış olub və sakinlərlə görüşüb

**İşğaldan azad olunan rayonlara məcburi köçkünlərin köçürülməsi prosesi davam edir, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi dövlət siyasətinin əsas istiqamətidir.**



Ötən həftə Prezident İlham Əliyevin işğaldan azad olunan rayonlara səfəri bir daha göstərdi ki, həmin bölgələrə həyat yenidən qayıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olublar və burada kənd sakinləri ilə görüşüblər.

Görüşdə bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Eyni zamanda, kənd sakinlərinin rahatlığı və məşğulluğu nəzərə alınaraq bir sıra infrastruktur binalarının da inşası həyata keçirilib. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi də inşa edilib. Zabuxda evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilir. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetirilib.

Qeyd edək ki, artıq avqustun 25-də 20 ailə - 88 nəfər doğma yurdlarına - Zabux kəndinə qayıdıb.

Dövlətimizin başçısı və birinci xanım kənd sakinləri ilə görüşüb söhbət ediblər.

Səfər çərçivəsində bir sıra strateji obyektlərin açılışı olub.

Ölkəmizin rəhbəri -"Azər-Enerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin, "Hoçaz-film" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 saylı tam orta məktəbin əsaslı təmirdən sonra, "Həkəri Balıq Təsərrüfatı"nın açılışlarında iştirak edib, Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə, Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olub. Prezident İlham Əliyev Mehmanxana kompleksinin təməlini qoyub.

### Qayıdış üçün prinsiplər müəyyənləşib

Qarabağda əhalinin məskunlaşdırılması üçün əsas prinsiplər müəyyənləşdirilib. Təhlillər onu göstərir ki, Şərqi Zəngəzur iqtisadi rayonunda məskunlaşma üzrə göstəricilər daha yüksəkdir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçında məskunlaşmanın daha tez olması Prezident İlham Əliyevin strateji planları sırasına daxildir. Şəhər günü ilə bağlı bayram tədbirində dövlət başçımız buna toxundu və qeyd edildi ki, strateji hədəflərimizə çatmağımız üçün heç bir maneə yoxdur. Çünki bölgənin siyasi, iqtisadi və hərbi gücü Azərbaycandır.

# Prezident İlham Əliyev qəbul keçirib

Prezident İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güleri qəbul edib.

Dövlətimizin başçısı Yaşar Gülerin Türkiyənin milli müdafiə naziri vəzifəsinə təyin edilməsini Türkiyə Prezidenti tərəfindən göstərilən böyük etimad kimi dəyərləndirib və ona vəzifəsinin icrasında uğurlar arzulayıb.

Prezident İlham Əliyev Yaşar Gülerin Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğulayıb, bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışının önəmini diqqətə çatdırıb. Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Hərbi qurumlar arasında iş birliyi davam edir

## Prezident İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib

Qəbulda Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi bildirilib. Metin Gürakın vəzifəyə təyin olunmasından qısa zaman sonra ölkəmizə səfər etməsinin önəmi qeyd edilib və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olunub. Azərbaycan və Türkiyənin hərbi qurumları arasında səmərəli iş birliyinin həyata keçirildiyi qeyd edilib.

Görüşdə Azərbaycanın Vətən müharibəsində Qələbəsinin önəmi və ordumuzun bu qələbənin əldə olunmasında göstərdiyi yüksək peşəkarlığı və qəhrəmanlığı vurğulanıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev avqustun 28-də "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 28-də "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 29-da Nəsir Məmmədovun İraq Respublikasında, Qismət Gözəlovun Türkmənistanda, Bünyad Hüseynovun Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmələri haqqında Sərəncamlar imzalayıb.

# Biz birlikdə güclüyük

## Zəfərlə azad olan şəhərlərin əlamətdar günləri ölkəmizdə coşqu ilə qarşılanır

Prezident İlham Əliyevin 31 iyul 2022-ci ildə azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi ilə bağlı Sərəncamı Vətən müharibəsindəki Zəfərin əbədiləşdirilməsində mühüm addımlardan biri oldu.

Tarixi sənəd statusu qazanan bu Sərəncam xalqımızın, xüsusən də işğaldan azad olunmuş torpaqlarda məskunlaşanların yaddaşından heç vaxt çıxmayacaq.

Sərəncamda qeyd edildiyi kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

### Əbədiləşən tarix

Şəhər günlərinin ilk coşqusu Laçında yaşandı. Bundan sonra üzümüzə gələn aylarda digər rayonlarımızda da yaşanacaq.

Ən diqqətçəkən məqam budur ki, bu tədbirlər bütün Azərbaycanı əhatə edir. Xalqımız bu tarixi günlərin coşqusu ilə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşib, onun hər bir əmrinə hazırdır. Bu bayramlar bir bayraq altında qələbəyə imza atdığımız kimi, müharibədən sonra da həmrəyliyimizin təntənəsinə çevrilir.

Zəfər tarixinin bizi birləşdirən dəyərə çevrilməsi üçün ulu öndərimizin idealları bu gün gerçəkləşdikcə qələbələrə gedən yollarımızın qarşısını heç bir qüvvə kəsməyə ürək eləmir.

Çünki biz birlikdə güclüyük, bu güc bütün sədləri aşmağa qadirdir.

# Daxili işlər naziri vətəndaşları dinləyəcək

## Qəbulda respublikamızın Cənub bölgəsinin - Masallı, Yardımlı, Lerik, Astara, Lənkəran rayon və şəhərinin sakinləri iştirak edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il sentyabr ayının 28-də Masallı Rayon Polis Şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara və Lənkəran şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 27 sentyabradək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

Təhlükəsizlik birgə səylər tələb edir 2

Yazıçılarla Şuşaya, polislərlə Laçına getdim 2

Sürücü, ehtiyatlı ol! Avtoqəza faciə ilə bitə bilər... 3

Polis olmasa nə baş verər? 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Sahibkarlardan Qarabağ Dirçəliş Fonduna dəstək

Laçın şəhəri günündə maraqlı hadisə yaşanıb. Ölkəmizdə qürurla qeyd edilən bu tarixi gündə işğaldan azad edilmiş ərazilərimizin təmizlənməsi üçün Azərbaycan istehsalı olan minatəmizləmə maşını sahibkarlar tərəfindən ianə olaraq Qarabağ Dirçəliş Fonduna təqdim olunub.

## Laçında özünüməşğulluq proqramının icrasına başlanılıb

"Böyük Qayıdış" proqramı üzrə Laçın rayonuna köçürülən sakinlərin özünüməşğulluğuna dəstək işləri aparılır. Dövlət Məşğulluq Agentliyinin nümayəndələrinin Laçına köçürülən ailələrlə görüşləri zamanı onların özünüməşğulluq proqramında iştirak imkanları da qiymətləndirilir. Bu məqsədlə sakinlərdən 35 nəfər ilkin mərhələdə özünüməşğulluq proqramına cəlb edilmək üçün qeydiyyata alınıb. Həmin şəxslər üçün əvvəlcə biznes təlimləri təşkil ediləcək, iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə məlumatlar veriləcək.Təlimlərdən sonra proqram iştirakçıları kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik bizneslərini qurmaları üçün aktivlərlə təmin olunacaqlar.

## Laçın şəhərinə növbəti köç karvanı yola salınıb

Bu mərhələdə Laçına daha 13 ailə (52 nəfər) köçürülüb. Gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 247 ailə, yəni 956 nəfərin daimi məskunlaşması təmin edilib.

## Klassik avtomobillər paytaxtın mərkəzi küçələrində

Azərbaycan Avtomobil Federasiyası  və "Zhara Events"in təşkilatçılığı ilə avqustun 27-də klassik avtomobillərin yürüşü və sərgisi keçirilib. Bu avtomobillər yürüş üçün Avtomobil Federasiyasında qeydiyyat keçən və Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələri olub. Heydər Əliyev Mərkəzinin qarşısından start götürən klassik avtomobillər "Sea Breeze" istirahət mərkəzinədək yürüş ediblər. Yürüşə 1983-cü ilədək istehsal olunan nəqliyyat vasitələri qatılıb. Əvvəlcə klassik avtomobillər şəhərin mərkəzi küçələri ilə hərəkət ediblər. Yürüşün marşrutu Heydər Əliyev Mərkəzi – Gülarə Qədirbəyova küçəsi – Yusif Səfərov küçəsi – Üzeyir Hacıbəyli küçəsi – Neftçilər prospekti - Yusif Səfərov küçəsi – Heydər Əliyev prospekti –Aeroport yolu – Bakı Ekspo Mərkəzi – "Sea Breeze Resort" olub.

Əlli kilometrdən çox məsafəni qət edərək "Sea Breeze" istirahət mərkəzinə çatan klassik avtomobillərin burada sərgisi təşkil olunub.

## Ərazilər minalardan təmizlənir

Avqustun 21-dən 27-dək Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi işğaldan azad edilmiş ərazilərdə 528,1 hektar ərazini mina və partlamamış hərbi sursatlardan təmizləyib. Bu barədə ANAMA tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumatda bildirilir. Məlumata əsasən, Tərtər, Ağdam, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında icra olunan əməliyyatlar nəticəsində ümumilikdə 256 piyada əleyhinə, 92 tank əleyhinə mina, 71 partlamamış hərbi sursat aşkarlanıb.

## Mütəxəssislərə dövlət dəstəyi

İşğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyənlərin ilkin maddi-məişət şəraitinin dəstəklənməsi məqsədilə onlara birdəfəlik müavinətin (600 manat) təyin olunmasına başlanılıb. Müavinət elektron sistem üzərindən proaktv qaydada, yəni həmin işçilərin müraciət etməsinə və sənəd təqdim olunmasına ehtiyac olmadan həyata keçirilir. Əmək Məcəlləsinə əsasən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan, azad edilmiş ərazilərimizdə əmək müqaviləsi əsasında işləyən işçilər aiddir. Onlara əlavə məzuniyyət verilməsi də nəzərdə tutulub.

# Heydər Əliyev İli - 2023



**Ümummilli lider zamanında ölkəmizi beynəlxalq münasibətlər sisteminə inteqrasiya etdirməklə, həm də sabitliyin yaranması, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin aparılması üçün çoxspektrli fəaliyyətin əsasını qoydu.**

# Təhlükəsizlik birgə səylər tələb edir

## Əsrimizin çağırışlarına cavab vermək üçün hazırlıqlı olmalıyıq

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Lakin o zaman ölkədə səriştəsiz iqtidarın olması səbəbindən dövlət idarəçiliyi iflic vəziyyətdə idi. Ölkədə xaos və anarxiya hökm sürürdü, xalqın yaşayış səviyyəsi aşağı düşmüş, cinayətkarlığın səviyyəsi yüksək həddə çatmışdı. Azərbaycan beynəlxalq aləmdən tamamilə təcrid olunmuş, informasiya blokadasına alınmışdı. Bütün bunlardan da təcavüzkar Ermənistan öz iyrənc siyasəti üçün yararlanırdı.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev belə bir ağır vəziyyəti aradan qaldırmaq üçün dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa başladı. Dünyanın nəhəng və qüdrətli dövlətləri ilə, həm də yaxın qonşularla qarşılıqlı etimada söykənən diplomatik münasibətlər quruldu. Ulu öndər ölkəni təcridolunmadan, süni surətdə onun ətrafında yaradılmış informasiya blokadasından xilas etdi.

Düşünülmüş və çoxsahəli xarici siyasət strategiyası gənc, müstəqil dövlətimizin beynəlxalq münasibətlər sistemində özünün milli maraq və mənafeyinin qorunmasında, təhlükəsizliyinin təmin olunmasında fövqəladə nəticələr verdi.

### Sınaqlardan uğurla çıxdıq

Müstəqilliyimizə qovuşduqdan sonra ölkəmizin beynəlxalq aləmdə tanınması, dünya dövlətləri ilə tərəfdaşlıq münasibətlərinin qurulması zərurəti yaranmışdı. Bu təkcə xarici siyasət kursunda deyil, mühüm dövlət qurumlarının fəaliyyətində də vacib istiqamət kimi qarşıda dururdu. Ümummilli lider zamanında ölkəmizi beynəlxalq münasibətlər sisteminə inteqrasiya etdirməklə, həm də sabitliyin yaranması, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin aparılması üçün çoxspektrli fəaliyyətin əsasını qoydu.

Qanunçuluğun və hüquq qaydalarının təmini məqsədi ilə zəruri addımlar atıldı, ölkəmiz cinayətkarlığa, onun ağır növlərinə qarşı antiterror koalisiyalarında yer aldı, bir çox konkret cinayət növləri üzrə mübarizənin koordinasiyasında beynəlxalq hüquqi aktlara qoşuldu. Daxili İşlər Nazirliyinin xarici dövlətlərin hüquq mühafizə orqanları ilə beynəlxalq əməkdaşlıq əlaqələrinin yaradılmasına başlanıldı. Milli təhlükəsizlik konsepsiyasına əsasən keçirilən bu tədbirlərlə ölkəmizdə inkişaf etmiş xarici dövlətlərin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi öz bəhrəsini verdi.

Ölkəmizin Kriminal Polis Təşkilatı - İNTERPOL-a üzv olmasından sonra xarici dövlətlərin hüquq mühafizə orqanları ilə əməkdaşlığın təməli qoyuldu. BMT, Avropa Şurası kimi mötəbər təşkilatların hüquq mühafizə sahəsi üzrə ixtisaslaşmış qurumları ilə münasibətlər intensivləşdi. Geniş miqyaslı sosial, iqtisadi və demokratik-hüquqi islahatlar çərçivəsində Daxili İşlər Nazirliyinin fəaliyyəti beynəlxalq norma və standartlara uyğun təkmilləşdirildi, bir sıra normativ aktlar və konseptual sənədlər tərtib edildi.

*(Ardı var)*

*İlham Babayev*
*polis polkovniki*

# Yazıçılarla Şuşaya, polislərlə Laçına getdim

**Böyük zəfərdən qısa vaxt keçsə də düşmənin xarabazara çevirdiyi, viran qoyduğu yurd yerlərimiz dövlətimizin xalqımızın tikən, quran əli ilə abadlaşır.**

Mənfur düşmənin işğal edib, viran qoyduğu Qarabağa və Şərqi Zəngəzura qayıdacağımız günləri səbirsizliklə gözləyirdik. Özlərini əbədi qalib bilən düşmənin törətdiyi vəhşiliklər hamımızı hiddətləndirir, bizi intiqama səsləyirdi. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə müzəffər ordumuzun 44 günlük Vətən Müharibəsində qazandığı qələbə ilə bütün miflər darmadağın oldu. Bütün dünya Azərbaycanın gücünün, həqiqətinin şahidinə çevrildi.

Mən Şuşa həsrətimi "Qarabağ küçəsindən Şuşaya" adlı məqaləmdə dilə gətirmişdim və bu həsrət iyul ayında Şuşada keçirilən Vaqif Poeziya Günlərində şükürlər olsun ki, bitdi. Şuşada olarkən bir daha əmin oldum ki, Şuşasız bizim işimiz, sözün əsl mənasında, yarımçıq olardı...

Avqustun 13-də Laçına yola düşdük. Bu, yuxu deyildi. Arzular 2020-ci ildə reallığa çevrilmişdi, yuxular 2020-ci ildə çin çıxmışdı. Torpaq həsrəti yaman olurmuş. Həsrətə son qoyulması hamımızı o yerləri görməyə səsləyirdi. Laçına gedənlərin içərisində uşaqlığı, gəncliyi orda keçənlərdə vardı, vətəni qundaqda tərk edənlər də.

Mövzu vətən, torpaq olanda insan heç nə haqqında düşünmək






istəmir. Qəribə idi, avtobusda hamı Laçın deyib, Laçın eşidirdi. "Xatirimizdə qalanlarla, görəsən, gedib görəcəklərimiz üst-üstə düşəcəkmi, görəsən yad kimi yurd yerində vurnuxub qalmayacağıq ki",- deyənlər də vardı. Sanki saatın əqrəbləri də Laçın havasına can atırdı. Yol uzun olsa da bizə elə gəlirdi ki, vaxt tez keçir.

Horadizə çatanda "Yolun damarını qırdıq, yurda az qaldı",- deyib dərindən nəfəs alan polis polkovnik-leytenantı Təyyar Rzaquliyev sevincini gizlədə bilmirdi. Fikrindən keçənləri dilinə gətirmək həmin an onun üçün çox çətin idi. Köçkünlük yaşamayan heç bir yaradıcı adam, istər şair, yazıçı olsun, istərsə də rəssam o ağrını, o dərdi nə olduğu kimi yaza bilər, nə də rənglərin dili ilə danışdıra...

"Qayıdış qəsəbələri" yazılan lövhə tökülən qanların, çəkilən zəhmətin, həqiqəti üzə çıxarmaq uğrunda diplomatik səylərin, demokratiya, insan hüquqları adı altında xain xislətini gizlədən supergücün hər də söz, fikir döyüşünün gerçəkliyidir. Bu o deməkdir ki, biz burdayıq, bu yerlərin sahibi bizik və böyük Qayıdışımıza çox az qalıb.

Füzulidə sənədlərimiz və portalda qeydiyyatımız yoxlanılır. "Polis" qəzetinin redaktoru kimi bu yoxlama və həmkarlarımın münasibəti diqqətimdən yayınmır. "Biz də polisik, bizi niyə yoxlayırlar",- deyib narazılığını bildirən yoxdur. Çünki qanunun hamı üçün olduğunu onlar yaxşı bilirlər.

Füzuli böyük bir tikinti meydanına bənzəyir. Yeni evlərin bünövrəsi qoyulur, dağıdılmış yollar yenidən qurulur. Günün altında, qora bişən bu günlərdə işğaldan azad olunmuş yurdlarda qurub-yaratmaq eşqi ilə çalışanlar torpaq rənginə dönsələr də bilirlər ki, burada yaşayacaq yüzlərlə, minlərlə soydaşımızın ağ günləri üçün zəhmət çəkir, həm də ailələrinin dolanışığını təmin edirlər.

### Bu da Cəbrayılın Şükürbəyli kəndi

Yolumuzun sağ və sol tərəfindəki evlər tamamilə dağıdılıb. Və ən əsası yeni salınan yol kəndləri şəhər mərkəzi ilə birləşdirəcək. Yol demişkən, cənab Prezidentin bu gün xalq arasında zərb-məsələ çevrilmiş "Noldu, Paşinyan, Cəbrayıla yol çəkirdin" fikri yadıma düşdü. İşğaldan azad edilmiş ərazilərin həyatın yenidən bərpası və yaxşılaşdırılması üçün görülən işlər də diqqətimizdən yayınmır.

*(Ardı var)*

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Sürücü, ehtiyatlı ol! Avtoqəza faciə ilə bitə bilər...

## Təhlükəsiz həyat naminə hər birimiz qaydalara əməl edək ki, doğmalarımız gözü yaşlı qalmasın!!!



Qəzalar olur, demək olar ki, hər gün olur. Ölüm baş verir. Cansız bədənlərin doğmalarını, əzizlərini ovundurmaq, təskinlik vermək üçün sözlər də aciz qalır.

Avtoqəzalar, yol terroru - hər il minlərlə insanın faciəsi, yüzlərlə insanın ölümü, yaralanmalar, maddi ziyanlar cəmiyyəti təhdid edir. İldən-ilə avtoqəzaların sayında azalmaların olmasına baxmayaraq, yenə də tələfat var, ziyan var. Bu sahədə əməli tədbirlər davam etdirilir, müxtəlif vasitələrlə hadisələrin azaldılmasına çalışılır ki, insanlar təhlükəsiz yaşasınlar. Məqsəd insan həyatını qorumaq, statistik göstəricilərdə "bu ilin müvafiq dövründə baş verən yol qəzalarında ölüm halları qeydə alınmayıb" fikrinin yer almasıdır. Təəssüflər olsun ki, arzularla reallıqlar üst-üstə düşmür. Cari ilin 6 ayı ərzində Azərbaycan avtomobil yollarında 780 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 387 nəfər ölüb, 669 yaralanıb.

### İctimai təhlükəli əməli cəzasız qalan adam, ya ölümə gedir, ya da öldürməyə...

Ekspertlər hesablayırlar ki, orta hesabla 150-200 uşaq ya atasız, yaxud anasız qalıb, ən yaxşı halda valideynləri şikəst olub, digərlərini isə həbsxana yolu gözləyir. Bütün qəzaların başlıca səbəbi isə sürət həddinin aşılması, ehtiyatsızlıq, yolda "mənəm-mənəm"likdir.

Vəziyyəti təhlil etdikdə aydın olur ki, dövlətin bütün tədbirlərinə rəğmən qəzalar baş verir. Niyə baş verir? Cavab çox sadədir: "Yol polisi yoxdur, görmür sürüm..."

Bilir ki, görsə, müşahidə etsə, dayandıracaq, cəzalandıracaqdır. Baxmayaraq ki, bəzi ekspertlər yol polisinin profilaktik tədbirlərini başqa şəkildə şərh edir, cərimələrdən gileylənirlər. Hüquq fəlsəfəsi buna çox aydın izah verir: **"İctimai təhlükəli əməli cəzasız qalan insan, ya ölümə gedir, ya da öldürməyə"...** Məgər dövlət hər sürücünün yanına, hər bir yolayrıcına nümayəndə qoymalıdır? Yol polisi haqlı olaraq, müntəzəm statistikanı yayır ki, ay sürücü, ay piyada, bu qədər adam ölüb, bu qədər adam xəsarət alıb, diqqətli ol! Bu reallıqlar o həqiqətin göstəricisidir ki, hakimiyyət



nümayəndəsi polis cəmiyyətə açıq çağırışlar edir: "Yol qaydalarına əməl edin, əks təqdirdə..."

### Ölənlər, öldürənlər kimdir?

Hadisələrin 44,4 faizi gündüz, 39,4 faizi gecə, 16,3 faizi toran vaxtı baş verib, 29,2 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib. Onu da əlavə edək yol-nəqliyyat hadisələrinin 88,5 faizi yaşayış məntəqələrində baş verib. İnsan nə qədər etinasız, nə qədər məsuliyyətsiz olmalıdır ki, yaşayış yerlərində bu qəzalara səbəb olsun. Niyə insan cəmiyyətə qarşı bu qədər açıq hörmətsizliyə, biganəliyə özünü səfərbər edir? Hardadır bu sualın cavabı?

Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 74,7, yaralananların isə 73,2 faizini kişilər təşkil edib. Axı, bu insanlar atadır, əmidir, dayıdır, babadır. Yaxşı deyək ki, özünü düşünmür, bəs ailəsi, bəs doğmaları?

Hələ bu azmış kimi 2023-cü ilin 6 ayı ərzində nəqliyyat vasitələrinin şərxoş vəziyyətdə idarə olunması səbəbindən ölümlə və ya xəsarətlə nəticələnən 15 qəza baş verib. Nəticədə 3 nəfər ölüb, 18 yaralanıb. Nə olub? Nədir bu? Bu qəsdin adı nədir?

Dirilər bilsin – ölənlər onsuz da yoxdur ki, sual verib soruşaq...

Unutmayaq ki, analar, bacılar məzar başında ağı deyib təskinlik tapa bilmədiyi faciədir avtoqəza ölümləri...

*"Polis"*

# Türkiyədə doktoranturanı qazandı

## Əldə edilən uğur gənclərə qayğının, göstərilən etimadın nümunəsidir

Polis Akademiyasının əməkdaşı, polis baş leytenantı Elməddin Hüseynov "Bilgisayar ve Öğretim Teknolojileri Eğitimi" ixtisası üzrə Türkiyə Respublikasının nüfuzlu "Gazi Üniversiteti"nin doktorantura pilləsinə qəbul olunub.

Qeyd edək ki, Türkiyə Cumhuriyyəti elan edildikdən sonra yaradılmış ilk dövlət universiteti olan "Gazi Üniversiteti" yüksək səviyyəli təhsili, ictimai xidmətləri ilə milli və beynəlxalq səviyyədə prestij qazanmış təhsil müəssisələri arasında yer alır.

# Polisə təşəkkür edirlər...

## Operativ reaksiya, obyektiv araşdırma inam və etibar qazandırır

"Bu gün ölkəmizdə vətəndaşlarımızın görmək arzusunda olduğu polis imici formalaşıb.Gündəlik həyatımızda baş verən neqativ halların aradan qaldırılmasında onların rolu danılmazdır. Üzləşdiyim problemlə əlaqədar Abşeron Rayon Polis İdarəsinə müraciət etdim. Operativ reaksiyadan çox məmnun qaldım. Mənə dəyən maddi ziyan qısa zamanda tam ödətdirildi. Göstərilən diqqətə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığımı bildirirəm". Bu fikirlər Xırdalan şəhər sakini Elməddin Hüseynovun DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.



Şabran rayon sakini Lətifə Mirzəyeva yazır: "Sosial şəbəkə üzərindən mebel almaq məqsədilə 800 manatımı alıb aldatmaqları ilə bağlı müraciətimə Şabran Rayon Polis Şöbəsində operativ və obyektiv yanaşılması polisə olan inamımı daha da artırdı. Tez bir zamanda həmin şəxs tapıldı və mənə dəyən ziyan ödənildi".

Balakən rayon sakini Zaur Xəmmədov mobil telefonunun oğurlanması ilə bağlı müraciətinə operativ baxılaraq tez bir zamanda tapılmasında göstərdikləri köməkliyə görə daxili işlər orqanları əməkdaşlarına təşəkkürünü bildirir.

Sumqayıt şəhər sakini Yaşar Məmmədov ona məxsus bank kartından 1184 manatının oğurlanması ilə bağlı şikayətinə operativ baxılaraq araşdırma aparıldıqdan sonra həmin məbləğin tam şəkildə hesabına qaytarılmasında göstərdikləri köməkliyə görə Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

"Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşlarının operativliyi sayəsində mənə dəyən ziyan tez bir zamanda ödənildi. DİN rəhbərliyi başda olmaqla Azərbaycan Polisinə təşəkkürümü bildirirəm". Bu fikirlər Ağdaş rayon sakini Nəriman Rəhimovun DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Vətəndaş Rövşən Şıxəliyev baş vermiş yol-nəqliyyat hadisəsi ilə bağlı obyektiv araşdırma aparılmasından razılığını ifadə edir və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Hər bir zəng polisə etimaddır

## Hər bir zəng təhlükəsizliyə çağırışdır



Daxili İşlər Nazirliyinin "102" Xidməti-zəng Mərkəzi ictimai qaydanın, eləcə də təhlükəsizliyin qorunması, cinayətlərin qarşısının alınması və açılmasında operativliyin təmini, habelə polis-vətəndaş münasibətlərinin optimallaşdırılması məqsədilə fasiləsiz olaraq 24 saat xidmət aparır. Daxili işlər orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, növbətçi hissələrin idarə edilməsi işinin təkmilləşdirilməsi, o cümlədən respublikada kriminogen durumla bağlı məlumatların toplanması Mərkəzin əsas fəaliyyət funksiyasıdır. Növbəli iş rejimində xidmət aparan həmkarlarımızın işi məsuliyyətli olduğu qədər də həssaslıq tələb edir.

Müraciəti qəbul edən operator vətəndaşın soyadını, adını, yaşadığı ünvanı, əlaqə telefonunu, şikayəti barədə ətraflı məlumatı aldıqdan sonra müraciətin məzmununu təfsilatı ilə aydınlaşdırır və kompüter sisteminin xüsusi formalı blankında qeydiyyatını aparır. Qəbul olunmuş müraciətə baxılması qaydaları haqqında vətəndaşa müvafiq izahatlar vermək mütləqdir.

Daxili işlər orqanlarının səlahiyyətlərinə aid olmayan məsələlərə dair müraciətlər isə aidiyyəti üzrə qurumlara istiqamətləndirilir.

Qeyd edək ki, Mərkəzə gün ərzində daxil olan 9-10 minə qədər zəngin bir qismi cinayət və hadisələrlə bağlı olsa da, digərləri polisə aid olmayan mövzuları əhatə edir.

Mərkəzin gecəli-gündüzlü xidmətini cari ilin yanvar ayının 1-dən avqust ayının 24-dək daxil olan müraciətlərin statistikası təsdiqləyir. Ötən müddət ərzində 2.285.359 zəng cavablandırılıb. Qeydiyyata alınıb aidiyyəti üzrə ötürülən müraciətlər sırasında ailə münaqişəsi, telefonla təhqir edilmə və ya narahat olunma, internetdə təhqir etmə və ya böhtan atma, xəsarət, o cümlədən yol-nəqliyyat hadisəsi, polisə təşəkkür və digərləri ilə bağlı olub. Daxil olan zənglər əsasında 1.100 cinayətin üstü "isti izlər"lə açılıb.

*Teymur Əlizadə*
*polis mayoru*

# Onlayn "ticarət"dən cinayətə

## "Kreditlə qızıl satan" keçmiş məhkumlar tutuldu

Sosial şəbəkələr vasitəsilə vətəndaşların pul vəsaitlərinin kiber üsullarla talanması barədə müraciətlər üzrə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri davam etdirilir. Bu sahədə müşahidə edilən əsas hüquqazidd hallardan biri də "kreditlə qızıl satılır" başlığı adı altında xüsusən "TikTok" sosial şəbəkəsində yerləşdirilən şirnikləndirici elanlarla vətəndaşların aldadılmasıdır. Sadalanan qanunsuz hallar nəzərə alınaraq bu tipli talama əməllərində şübhəli bilinən növbəti şəbəkənin üzvləri əvvəllər məhkum olunmuşlar - 1984-cü il təvəllüdlü Elvin Həsənov, 1988-ci il təvəllüdlü Loğman Zayidov və 1985-ci təvəllüdlü Ceyhun Kərimov rəqəmsal texnoloji metodlardan istifadə olunmaqla polis əməkdaşları tərəfindən müəyyən



edilib və qrupun bütün qanunsuz fəaliyyəti aşkarlanıb. Saxlanılan şəxslər vətəndaşların müxtəlif məbləğlərdə pul vəsaitlərini onlayn köçürmə formasında ələ keçiriblər. Dəstə üzvləri izi itirmək məqsədi ilə "kreditlə qızıl" almaq üçün onlara pul köçürən şəxslərin hesablarını sonradan bloklayıblar və həmin vəsaitləri şəxsi hesablara köçürərək nağdlaşdırıblar. Dəstə üzvləri ifadələrində sosial şəbəkələrdə törətdikləri bu qanunsuz əməlləri ilə 150-dən artıq şəxsə maddi ziyan vurduqlarını etiraf ediblər.

### Bank kartlarına qənim kəsilmişdi

Polis əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat nəticəsində paytaxt ərazisində ayrı-ayrı vətəndaşlara məxsus bank kartlarından müxtəlif məbləğlərdə pul oğurlayan 2001-ci il təvəllüdlü Kənan Bədirli müəyyən olunaraq saxlanılıb. Bu şəxs qeyri-qanuni vasitələrlə ələ keçirdiyi kart məlumatlarını müxtəlif mobil tətbiqlərdə qeydiyyatdan keçirib. Daha sonra Kənan Bədirli pul vəsaitlərini onlayn yolla öz hesabına transfer edərək silsilə oğurluqlar edib.

Hazırda saxlanılan şəxslər barəsində araşdırmalar davam etdirilir. Elvin Həsənov, Loğman Zayidov, Ceyhun Kərimov və Kənan Bədirlinin qanunsuz əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa Daxili İşlər Nazirliyinə müraciət edə bilərlər.

*Anar Qafarov*
*polis mayoru*

# Polis olmasa nə baş verər?

## Polis hər yerdə həmişə diqqətli və məsuliyyətli olmalıdır




"Necə iddia edə bilərəm ki, polislə problemlərim var?! Əgər kimsə iddia edirsə, o təhlükəli adamdır, ondan qorunmaq lazımdır…"

Amerikanın məşhur yazıçılarından Tomas Hauser polisin cəmiyyət, dövlət və insan həyatında yerini dəyərləndirərkən qeyd edir ki, polis peşəsi dünyada ən çətin, təhlükəli və idealist məşğuliyyətdir. Bu peşə həssaslığı ilə digər sahələrdən fərqlənir. İnsanlar polisə güzəştsiz yanaşır, davranışlarını izləyir, hər addımını müzakirə edir. "Polis məni saxladı…"- haqlı idi, çünki qanunu pozdum, yaxud haqlı deyildi, çünki mən qanunlara əməl edirəm…",- deyə vurğulanan müzakirələrdə polisin davranış mədəniyyəti nəzərdən keçirilir.

Deməli, polis hər yerdə həmişə diqqətli və məsuliyyətli olmalıdır. Çünki insanların polisə münasibəti birmənalı deyil…

Amerikalı dedektiv Edvard Gillesp bu barədə mühazirələrində qeyd edir ki, polisin hər addımı əsaslı sübuta çevrilə bilər. Yunan filosofu Platonun "özünə qarşı sübut" ideyasını nəzərdən keçirən detektiv hesab edir ki, insan özünə qarşı sübutları qəbul etmir. Bu, genetik mental vərdişdir. Sübut, əsas, səbəb qəbul edilməyəndə mübahisə yaranır, yaxud ən yaxşı halda "dedi-qodu" başlayır. Ona görə ki, orta səviyyəli insanların əksəriyyəti qanunun keşiyində dayanan polisə tabe olmağı bilmir. Hüquqlarını sadalayır, ancaq vəzifələrindən xəbəri yoxdur. Bu da elementar praktik düşüncədir.

Britaniyalı musiqiçi Keyt Riçard ictimai müzakirələr zamanı bütün dünyaya polisin fəaliyyəti ilə bağlı konkret sual ünvanlayıb-mənə izah edin: mən qanunları pozmuram, vətəndaş kimi hüquq və vəzifələrimi bilirəm. Polis "dayan" deyəndə dayanıram. Mübahisə etmirəm. Necə iddia edə bilərəm ki, polislə problemlərim var?! Əgər kimsə iddia edirsə, o təhlükəli adamdır, ondan qorunmaq lazımdır.

Bütün dünyada ümumi fikir var: polis dövlətin, dövlətçiliyin əsas sütunlarından biridir. Məsələn, amerikalı kinoaktyor Silvestr Stallone deyir ki, insanların təbiətcə xoşməramlı olduğunu düşünürsünüzsə, 24 saat polisi xidmətdən uzaqlaşdırın – görün nə baş verir.

# Yaşatmaq üçün səfərbər oldular

## Xilaskarlıq, kömək etmək, qorumaq qanımızdan gəlir

Həkim-hematoloqlarının iştirakı ilə Astara Rayon Mərkəzi Xəstəxanasında talassemiyalı və hemofiliyalı xəstələrə dəstək məqsədilə qanvermə aksiyası keçirilib.

"Qan ver, yaşat!" devizi ilə reallaşan aksiyada Astara Rayon Polis Şöbəsinin şəxsi heyəti də fəal şəkildə iştirak edib. Onlar bu xeyirxah və nəcib aksiyada iştirak etməyin həm də vətəndaşlıq borcu olduğunu hesab etməklə talassemiyadan əziyyət çəkənlərə öz dəstək və diqqətlərini nümayiş etdiriblər.

Qeyd edək ki, qanvermədən əvvəl hər bir donor tibbi müayinədən keçirilib. Toplanan qan laboratoriya müayinəsindən sonra irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

*"Polis"*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Agentin etirafları

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

***1828-ci ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər ötsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***



*(Əvvəli ötən sayımızda)*

Günorta biz kofe içdik. Delzevin kefi yaxşıydı, biz barışmış, hətta dostlaşmışdıq. Mehmanxanadan çıxdıq və on dəqiqədən sonra artıq cənab Anrinin yanındaydıq. Cənab Anri onu yeni il münasibətilə təbrik etməyə gələn zabitlərlə bir yerdəydi. Mən otağa daxil oldum, "Sizi Yeni il münasibətilə təbrik etməkdən və məşhur Delzevi təqdim etməkdən qürur duyuram!" – dedim.

### Oğrunun tutulması bayram sovqatı olur

Delzevi görən cənab Anri, bax bu çox yaxşı bayram oldu, dedi. Sonra zabitlərə üzünü tutaraq: – Cənablar, yaxşı olar ki, sizlər də Paris polisinə belə bayram sovqatı hədiyyə edəsiniz, – dedi.

Mənə dərhal Delzevi İstintaq təcridxanasına yerləşdirmək tapşırığı verildi. Cənab Anri ayrılanda, - Gedin dincəlin, sizdən çox razıyam, – dedi.

Delzevin həbsi mənə çoxlu təriflər deyilməsinə səbəb oldu və xoş münasibət yaratdı. Bununla belə, bu hadisə birgə xidmət etdiyimiz şəxslərin paxıllığının nə qədər böyük olduğunu da aşkarladı. Onlardan yalnız biri – cənab Tibo mənə qarşı ədalətli münasibət göstərməkdən çəkinmirdi.

Sanki fırıldaqçılar və niyyəti düz olmayan insanlar əlbirmiş kimi, polis xidmətində uğur qazana bilməyənlər də mənə qarşı kin bəsləyirdilər. Onların sözlərinə görə, mən tanınmış oğruydum, mən hansı cinayətləri törətməmişdim ki? Mən nəyə qadir deyildim..! Haqqımda belə şaiyələr yayırdılar. Bəlkə də onlar özləri də bunun bir hissəsinə inanırdılar, oğrular isə əmin idilər ki, nə vaxtsa onların işi ilə məşğul olmuşam.

### Tərəddüdsüz xidmət

Oğrular ələ keçəndən sonra mənə satqın kimi baxırdılar, elə düşünürdülər ki, polislə işbirliyinə görə, "cəzanın labüdlüyü"mənim üçün keçərli deyil, polis mənim qanunsuz əməllərimə göz yumur. Bu, yalan idi. Çünki mən vicdanla dövlətə - polisə xidmət edirdim. Polisin mənə ehtiyacı vardı.

Mənim haqqımda nağıllar qoşmuşdular. Polis zabitləri və ikinci dərəcəli agentlər də belə nağılları yaymaqdan çəkinmirdilər, bu nağılları həqiqət kimi qələmə verirdilər. Bəlkə də onlar doğrudan da mənə ləkə yaxmaq istəmirdilər. Mənim keçmişimdən xəbərdar olan hər bir şəxs bu barədə düşünə bilərdi. Çox qədim zamanlardan xəfiyyələr bu iki işin ikisini də görürdülər. Hamı bilirdi ki, Qupil, Folarenten, Levek, Koka-Kakur, Burdari, Kade və mənim digər sələflərim və köməkçiləri belə başlamışdılar. Onlar görürdülər ki, xəfiyyələrin əksəriyyəti residivistlərdir. Mən isə onlardan daha hiyləgər, daha səriştəli və işgüzaram, buna görə belə qənaətə gəlmişdilər ki, mən polislərin içərisində ən tədbirliyəmsə, oğruların da ən bacarıqlısıyam. Mən ürəkdən onları bu yalan mükalimələrə görə bağışlayıram. Amma heç cür məni daim oğurluq etməkdə ittiham edənləri əfv edə bilmərəm.

Cənab Anri bu cür böhtandan qeyzlənərək, onlara iradlarla cavab verdi: "Əgər Vidokun hər gün oğurluq etməsi düzdürsə, onda sizi daha çox bacarıqsızlıqda ittiham etmək üçün əsas var. Siz çoxsunuz, o, isə təkdir. Siz bilirsiniz ki, o, oğurlayır, niyə onu cinayət başında yaxalamırsınız? O, təkbaşına sizin yoldaşlarınızı cinayət başında yaxalayır. Məgər siz onu yaxalaya bilmirsiniz?".

Müfəttişlər heç bir cavab verə bilmir və susurdular. Amma görünürdü ki, onların mənə olan düşmənçiliyi zaman keçdikcə daha da güclənir. Buna görə polis prefekti məni onların tabeçiliyindən azad etməyə qərar verdi. Bu vaxtdan etibarən azad idim və nəyi necə uyğun bilirdimsə, o cür də fəaliyyət göstərirdim. Yalnız cənab Anridən tapşırıq alırdım və ona hesabat verirdim.

Əgər imkan olsaydı, səylərimi ikiqat artırardım. Cənab Anri narahat deyildi ki, işə sədaqətim və işgüzarlığım zəifləyəcək, ancaq mənə nifrət edən və o biri dünyaya göndərməyə çalışan adamlar varıydı, buna görə uzaqdan məni izləyən və təhlükə olduqda xəbərdar etməli olan köməkçi vermişdi.

Mənə verilən imtiyaz iş üçün xeyirli oldu, çoxdan bəri ədalət mühakiməsindən gizlənən oğruları yaxaladım. Yenə əvvəlki kimi tabeçilikdə işləsəydim bu cinayətləri aça bilməzdim. Çünki müəyyən adamlar var idi ki, mənə mane olurdu. Onlar işləmir, imitasiya edirdilər. Amma iş orasındadır ki, çox işlədikcə, artıq daha çox tanınırdım.

*(Ardı var)*

# Suallar: Ərazi üzrə istintaq aidiyyəti necə tənzimlənir?

- Ərazi üzrə istintaq aidiyyəti, cinayət hadisəsinin baş verdiyi yerə görə müəyyənləşdirilir. Qanuna əsasən, ibtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır.

**İstisnalar varmı?**

– Cinayət işi üzrə məhkəməyədək icraatın hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasını təmin etmək məqsədilə ibtidai araşdırma müstəntiqin qərarı əsasında cinayətin aşkar olunduğu, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidlərin əksəriyyətinin olduğu yer üzrə də aparıla bilər.

**İbtidai araşdırma zamanı ayrı-ayrı istintaq hərəkətlərinin başqa ərazidə aparılması zərurəti yarandıqda müstəntiq hansı hərəkətləri yerinə yetirmək hüququna malikdir?**

-Öz qərarı ilə bu hərəkətlərin aparılmasını şübhəli, təqsirləndirilən şəxsin və ya şahidlərin əksəriyyətinin olduğu yer üzrə müstəntiqə, yaxud təhqiqatçıya həvalə etmək;

-Təxirəsalınmaz hallarda həmin hərəkətləri təqsirləndirilən, şübhəli şəxsin və ya şahidlərin əksəriyyətinin olduqları yer üzrə həmin ərazidə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verməklə aparmalı (CPM-in 216-cı maddəsi).

**Uzanan və ya davam edən cinayətlərin ərazi üzrə istintaq aidiyyəti məsələsi cinayət-prosessual qanunvericiliklə necə müəyyən edilir?**

- Bu xüsusatın hüquqi tənzimlənməsində CPM-nin 74-cü maddəsi əhəmiyyət kəsb edir. Belə ki, qanunun həmin normasına əsasən, uzanan və ya davam edən cinayətlərin təqdim edilməsi ilə bağlı cinayət işlərinin məhkəmə aidiyyəti aşağıdakılara əsasən müəyyənləşdirilir:

-Uzanan cinayətin başa çatdığı yer onun törədildiyi yer hesab olunur;

- Cinayət qanunu ilə nəzərdə tutulmuş son əməlin törədildiyi yer davam edən cinayətin başa çatdığı yer hesab olunur. Xaricdə törədilməsi ehtimal olunan cinayət halında iş üzrə təqsirləndirilən şəxsin Azərbaycan Respublikasında axırıncı yaşayış yeri üzrə fəaliyyət göstərən məhkəməyə aiddir.

- Cinayətin törədildiyi yeri müəyyən etmək mümkün olmadıqda, cinayət işi həmin işin məhkəməyədək icraatının başa çatdığı yer üzrə fəaliyyət göstərən məhkəməyə aiddir. Cinayət işlərindən biri ağır cinayətlər məhkəməsinə, digəri isə rayon (şəhər) məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə ağır cinayətlər məhkəməsində baxılır.

# Ünsiyyət qurmaq bacarıq, yoxsa vərdişdir?

## Peşəmiz ünsiyyət qurmağı tələb etdiyi üçün bunları yadda saxlamalıyıq

*(Əvvəli ötən sayımızda)*

Ünsiyyət sosial tələbatdır. İnsanın ünsiyyətqurma bacarığı o zaman effektli olur ki, o, qarşısındakı şəxsə nitqi və davranışı ilə təsir edə bilsin. Hər iki halın harmoniyası isə uğurlu ünsiyyəti qaçılmaz edir. Unutmayaq ki, ünsiyyətdə olarkən insanlar yalnız bir-birinə məlumat ötürmür, həmçinin müxtəlif səviyyələrdə bir-birilərinə psixoloji təsir göstərmiş olurlar.

Odur ki, uğurlu ünsiyyət qurmaq və fərqlənmək istəyiriksə, dürüst olmalı, sərbəst danışmalı və dinləməyi bacarmalıyıq. Bunları xidmətimizdə vərdişə çevirə bilsək, hər bir çətinin öhdəsindən gəlməklə yanaşı, haqqımızda deyilən ümid yeri, etibar edilən həqiqətini yaddaşlarda ömürlük möhürləyərik.

Təsiredici ünsiyyətin xidməti fəaliyyətimizə faydalı olması üçün bunları bilməliyik:

13. Problemə deyil, həllinə istiqamətlənin.
14. Başqalarını alçaldan istehzalı sözlər söyləməyin.
15. Həddindən artıq danışmayın, təsiri azaldarsınız.
16. Danışanın duyğularını, onun düşüncə baxımından anlayaraq qulaq asın.
17. İnanmadan söylənilən sözlərin, inandırıcı olmadığını bilin.
18. Süni davranışlardan və şişirdilmiş sözlərdən çəkinin.
19. Jest və mimikalarınız sözlərinizin önünə keçməsin.
20. Düşünmədən danışmayın.
21. Qəzəbliykən vacib söhbətlər etməyin, hirslə ani qərar verməyin.
22. Qarşılıqlı sual və cavablarla bərabər çıxış imkanı yaradın.
23. Çox danışan, lazımsız yerə hər kəsin vaxtını alanlara fürsət verməyin.
24. Sual verib qarşınızdakıyla maraqlanın.
25. Gülümsəyin.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik